# Prezident İlham Əliyevin tapşırığına əsasən ictimaiyyət nümayəndələri ilə görüşlər keçirilib

Fevralın 2-də rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Astara Rayon Mədəniyyət Mərkəzində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Görüşdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində Astarada da irihəcmli sosial layihələrin həyata keçirildiyi bildirilib, bu işlərin davamlı olduğu, rabitə və kommunikasiya sahəsində də tədbirlərin görüldüyü diqqətə çatdırılıb.

R.Quluzadə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın ikinci ilinin yekunlarına həsr olunmuş konfransda Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələr haqqında məlumat verilib, rabitə və telekommunikasiya sahəsindəki perspektivlərdən də söz açılıb. Diqqətə çatdırılıb ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında müəyyən edilmiş tədbirlərə müvafiq olaraq, ölkəmizdə telekommunikasiya şəbəkəsinin elektronlaşma səviyyəsi 100 faizə çatdırılıb, telefon şəbəkəsinin 45 faizi ən son texnologiyalar əsasında yenidən qurulub, 900-dən çox poçt şöbəsi, 10 poçt filialı üçün yeni binalar tikilib. Əhalinin 90 faizindən çox hissəsi rəqəmli televiziya yayımı ilə əhatə olunub, genişzolaqlı internet xidmətlərinin tətbiqinə başlanılıb.

Dövlət proqramlarının icrasının konkret nəticələr verdiyi qeyd olunub, regionların müasir infrastruktur və inkişaf tempinə görə bəzi sahələr üzrə paytaxtı qabaqladığı vurğulanıb. Qeyd edilib ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları çərçivəsində rabitə sahəsində də mühüm işlər görülüb. Son texnologiyalara əsaslanan müasir telekommunikasiya, genişzolaqlı internet xidmətlərinin, teleradio yayımının coğrafiyası regionlara doğru genişlənib.

Astarada rabitə və yüksək texnologiyalar sahəsində görülən işlərə toxunan nazir rayon üzrə telefon şəbəkəsinin tutumunun artırıldığını, genişzolaqlı internetin şəbəkəsi və teleradio yayımı sahəsində olan problemlərin həlli istiqamətində işlərin ardıcıl davam etdirildiyini diqqətə çatdırıb. Bildirilib ki, yaxın iki ildə Astara rayonunun telefon şəbəkəsi üzrə 9500 nömrənin və 8000-ə yaxın genişzolaqlı xidmət avadanlığının istismara verilməsi, 3760 nömrə tutumlu yeni ATS-lərin quraşdırılması və 300 kilometrə yaxın yeni optik kabellərin çəkilməsi nəzərdə tutulur.

Rayon ictimaiyyətinin nümayəndələri rabitə və kommunikasiya sahəsi ilə bağlı təkliflərini səsləndiriblər.

* * *

Azərbaycan Respublikasının energetika naziri Natiq Əliyev fevralın 2-də Balakəndə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Görüşdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən ötən ilin yekunları və regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasına həsr olunan son müşavirələrdə verilən tapşırıqlar, 2015-ci ildə görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat verilib. Son illər rayonda görülən işlərdən, sahibkarlığın inkişafı üçün yaradılan şəraitdən, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərdən, rayonun sosial-iqtisadi inkişafı üçün nəzərdə tutulan layihələrdən danışılıb. Bildirilib ki, Prezident İlham Əliyev son illər 4 dəfə Balakənə səfər edib. Bu səfərlərin hər biri Balakən rayonunun iqtisadiyyatı, onun sosial həyatı üçün yeni inkişaf mərhələsi olub. Diqqətə çatdırılıb ki, son 10 ildə Balakəndə 32 məktəb binası, 4 uşaq bağçası tikilib, 10 uşaq bağçası əsaslı təmir olunub. Bundan əlavə, rayonda Olimpiya İdman Kompleksi, 187 çarpayılıq xəstəxana binası, Gənclər evi, Mədəniyyət Mərkəzi və digər sosial obyektlər tikilib istifadəyə verilib. Rayonun iqtisadiyyatında mühüm rol oynayan “Azər-yem-Sənaye” MMC-nin yem istehsalı zavodu, soyuducu anbar kompleksi, kərpic zavodları və digər istehsal müəssisələri fəaliyyətə başlayıb.

Energetika naziri Natiq Əliyev bildirib ki, Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü dövlət siyasətinin əsas tərkib hissəsi kimi ölkəmizdə yanacaq-enerji kompleksinin müasir tələblərə uyğun yenidən qurulması istiqamətində aparılan genişmiqyaslı islahatlar öz bəhrəsini verir. Bu baxımdan, qlobal proseslərin doğurduğu bütün çətinliklərə baxmayaraq, 2015-ci ildə energetika sahəsində bir sıra ciddi nailiyyətlər əldə edilib. Energetika sahəsinə böyük həcmli investisiyaların qoyulması, müasir texnologiyaların tətbiqi özünü doğruldub. 2015-ci ildə respublikada 40,7 milyon ton proqnoza qarşı 41,6 milyon ton neft hasil edilib. Ötən il Azərbaycanda ümumi qaz hasilatı isə 29,1 milyard kubmetr təşkil edib. Kənd və qəsəbələrin qazlaşdırılması istiqamətində görülən tədbirlər nəticəsində uzun illər qaz təchizatından kənarda qalan yaşayış məntəqələri də “mavi yanacaq”la təmin olunub. Artıq Azərbaycanda qazlaşdırma 90 faizə yaxınlaşır.

Görüşdə rayon ağsaqqalı Xəlifə Mirəliyev, sahibkarlar Məhəmməd Bazarov, Saleh İbrahimov, fermer İslam Muradov və başqaları çıxış edərək əhalinin sosial müdafiəsinin gücləndirilməsi, regionların sosial-iqtisadi inkişafına göstərdiyi qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

***AZƏRTAC***